# *Sədaqət Vəliyeva:* YAP Azərbaycanın siyasi palitrasına yeni nəfəs gətirib

"Yeni Azərbaycan Partiyasının təsis edilməsi ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olub. Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il noyabrın 21-i respublikamızın ictimai-siyasi həyatında yeni tarixi başlanğıc nöqtəsi sayılır. Ümummilli liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP Azərbaycanın ictimai-siyasi həyatına daxil oldu və bununla Azərbaycanın tarixində yeni dövr başladı. Ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası da Azərbaycanın siyasi palitrasına yeni nəfəs gətirib". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı deyib.

Sədaqət Vəliyeva bildirib ki, Azərbaycanın inkişafı prosesində YAP fəal şəkildə iştirak edir. Yeni Azərbaycan Partiyası qısa müddətdə böyük rəğbət qazanaraq əsl xalq partiyasına çevrilib: "Azərbaycan siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasıdır. Çünki Azərbaycan xalqının istəkləri, cəmiyyətin sosial-iqtisadi sifarişləri YAP-ın konseptual strateji proqramında ana xətti təşkil edir. Yeni Azərbaycan Partiyası 27 ildir öz prinsiplərini qoruyur. Yeni Azərbaycan Partiyası öz potensialı, real addımları və bacarıqlı kadrları ilə xalqa xidmət edir. Partiyanın gücü onun siyasi proseslərdəki mühüm rolu, iştirakı və qələbəsi ilə ölçülür. Partiyanın gücü onun ideologiyasındadır, xalqın rəğbətini, sevgisini qazanmasındadır, böyük sosial bazaya malik olmasında və seçkilərdə parlaq qələbələr əldə etməsindədir. Siyasi proseslərdə liderliyi bir daha göstərir ki, Yeni Azərbaycan Partiyası bundan sonra daha da qüdrətlənəcək, daha böyük siyasi gücə çevriləcək".



Deputat əlavə edib ki, bu gün YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqaz bölgəsinin ən güclü siyasi qüvvəsi kimi özünü təsdiq edib: "Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız gələcəyə doğru inamla irəliləyir. Ötən illər ərzində Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkəmizin beynəlxalq aləmdə mövqeyi daha da güclənib. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycan regionun lider dövlətinə çevrilib".

## Türkiyənin ən böyük hərbi gəmisi 2020-ci ildə istifadəyə veriləcək



Türkiyənin ən böyük və müasir texnologiyalar əsasında inşa edilən hərbi gəmisi "TCG Anadolu" 2020-ci ildə istifadəyə veriləcək. AZƏRTAC xəbər verir ki, Türkiyə Prezident Administrasiyasının müdafiə sənayesi idarəsi tərəfindən "Çoxməqsədli amfibiya hücum gəmisi (LHD)" layihəsi çərçivəsində inşasına başlanılan "TCG Anadolu" Türkiyənin ən böyük hərbi gəmisi olacaq. İstanbulun Tuzla rayonundakı "Sədəf" tərsanəsində hazırlanan 27 min tonluq gəminin uzunluğu 231, eni isə 32 metrdir.



22 noyabr.- 2019.- S.15.